## ARMENIA CLAIM TO THE HISTORICAL LANDS OF AZERBAIJAN

***Mamedova Nailya Vagif***

***Summary***

The article is devoted to the medieval history of Azerbaijan. A special place in it is occupied by issues of the history of Karabakh on the basis of a thorough study of the works of Russian and Western European historians. Emphasis is placed on the unfounded claims of Armenia to the historical lands of Azerbaijan and, as a result, the occupation of the ancestral Azerbaijani lands in the 90s. last century. The article assesses the aggressive policy of Armenia towards our sovereign, independent state. The article confirms the historical facts about the absence of the Armenian ethnos on the territory of the Caucasus as a whole and about the resettlement of Armenians to the historical lands of Azerbaijan after the signing of the Turkmenchay agreement. Also, a special place in the article's copendium is occupied by the results of the heroic and victorious Patriotic War of the Azerbaijani people to liberate their historical lands from the Armenian occupiers.

***Rəyçi:prof.Vaqif Abışov***

***Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq şöbəsinin 23 aprel 2021-ci il tarixli iclasın 05 saylı protokolu***

***Daxil olduğu tarix 27 aprel 2021-ci il***

**UOT:902.**

## GƏNCƏ ŞƏHƏRİNİN ORTA ƏSR İNCƏSƏNƏT TƏSVİRLİ SAXSI QABLARI

***Məmmədzadə Arəstə Elçin qızı***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun kiçik elmi işçisi***
***Abbasova1957@mail.ru***

**Xülasə:** *Cənubi Qafqazda ibtidai mənşəyi Azıx insanları ilə başlayan incəsənət mezolit dövründə Qobustan sakinlərinin qayaüstü təsvirləri ilə davam etdirilmiş, ardıcıl inkişaf və ənənəvilik şəraitində orta əsrlərdə daha yüksək zirvəyə qalxa bilmişdir.Azərbaycanın təbii zənginlikləri, heyvanat aləmi, ayrı-ayrı mərasimlərlə bağlı inamlar dünyagörüşlərini əks etdirən rəngarəng süjetlər bu təsvirlərdə əks olunmuşdur.*

*Gəncə şəhərinin orta əsr dulus qabları üzərindəki təsvirlər əsasən insan,heyvan,quş rəsmlərindən, əkinçilik,ovçuluq,bağçılıq və maldarlıqla bağlı səhnələrdən, qabların üzərindəki işarə və damğalardan ibarətdir. Bu rəsmlər orta əsrlərdə Gəncə şəhəri və onun ətraf ərazilərində yaşamış insanların təsərrüfat həyatının,dini inamlarının, dünyagörüşünün,mədəniyyətinin və incəsənətinin inkişaf dinamikasının göstəriciləridir.*

*Orta əsr Gəncə şəhərindən arxeoloji qazıntılar zamanı aşkarlanmış dulus qablar üzərindəki təsvirlərin bir çoxu hələ tunc dövründən başlayaraq Azərbaycanda yayılmış qayaüstü təsvirlərlə uyğunluq təşkil edir və onların davamı sayılır. Belə ki, keçi rəsmlərinə və şir təsvirlərinə e.ə. IV-III minilliklərdə ,maral rəsmlərinə və quş təsvirlərinə e.ə. III-II minilliklərdən rast gəlinsə də orta əsr qabları üzərində də onların təkmilləşmiş formaları öz əksini tapmışdır. Orta əsr Gəncə şəhərinin saxsı qabları üzərindəki təsvirlərdə rənglər həm də insanların dini ideoloji baxışlarını əks etdirir.*

*Dulus qablar üzərindəki it, at, qatır, uzunqulaq və s. kimi təsvirlər bədii yaradıcılıq baxımından seçilir və insanların gündəlik təsərrüfat və məişət həyatını əks etdirir.*

*Orta əsr Gəncə şəhəri ərazisindən arxeoloji qazıntılar zamanı aşkarlanmış dulus qablar üzərindəki incəsənət təsvirlərinin öyrənilməsi bölgədə bu sənət sahəsinin müəyyən mərhələlərlə inkişaf etdiyini göstərir.Belə ki,orta əsrlərin ilk mərhələsinə aid (III-IX əsrin birinci yarısı) qablar rəngsiz,şirsiz və saya formalı olsalar da onlar hazırlanarkən bəzilərinin ağız hissələrinin qoyun, inək, pələng və s. formalarda olması hətta müharibələrin tüğyan*

*etdiyi,yaxşı sənətkarların ölkədən aparıldıqları vaxtlarda da insanların incəsənət baxımdan qabiliyyətlərinin göstəricisidir.*

*IX-X əsrlərdə isə Gəncədə dulusçuluq sənətində məişət qablarının növləri artır,yeni qablar meydana çıxır,naxışlar zənginləşir. Bu da ilk növbədə həmin məhsulların dulus çarxında hazırlanması və dulusçuluğun peşəkar sənət sahəsinə çevrilməsi ilə əlaqəlidir.*

*XI-XIII əsrlərdə Gəncədə dulus qabların hazırlanma texnikası daha da inkişaf edir,qabların keyfiyyəti yüksəlir, naxışlar daha da zənginləşir, yeni növ qablar meydana çıxır ki,onların da hər biri incəsənət baxımından böyük maraq doğurur. Dulusçuluq sənətində ixtisaslaşmanın meydana gəlməsini ağ və qırmızı gildən təyinata uyğun məhsulların hazırlandığından görmək olur.*

*Gəncənin orta əsr təbəqəsindən tapılmış dulus qablar üzərindəki incəsənət təsvirlərinin öyrənilməsi XI-XIII əsrlərdə bölgədə dulusçuluq sənətinin ən parlaq mərhələsini keçirdiyini göstərir ki, bu da həmin dövrdə bölgənin Azərbaycanda İntibah mədəniyyətinin mərkəzi olması ilə əlaqələndirilməlidir.*

*Bəzi dulus qablarının üzərindəki təsvirlər həndəsi formalı motivlərlə ifadə olunmuşdur. Hələ Tunc dövründən rast gəlinən bu cür bəzək nümunələri antik və orta əsrlər dövründə də davam etmişdir.Bu cür elementlər memarlıqda, metalişləmə, toxuculuq kimi sənət sahələrində, həmçinin xalçaçılığın bədii tərtibatında Gəncə -Qazax bölgəsində bugün də davam etdirilir. Orta əsr Gəncə şəhər yerindən aşkar olunmuş dulus məmulatları üzərindəki bəzək növləri,rəsmlər Qarabağ bölgəsinin orta əsr materialları ilə eyniyyət təşkil edir ki, bu da təbiətin və təsərrüfat həyatının eyniliyi ilə əlaqəlidir. Belə təsvirlərin tunc və antik dövr materiallarında da aşkarlanması maddi mədəniyyətdə ənənəviliyin, varisliliyin, ardıcıllığın göstəricisi olmaqla bu ərazilərin xalqımıza məxsus daimi yaşayış yerləri olduğunu təsdiq edir.*

**Açar sözlər :** Gəncə, dulus, incəsənət, nümunə, təsvir
**Ключевые слова:** Гянджа, керамика, искусство, образец, описание
**Key words :** Gandja, potter, art, example, description

## Gəncə şəhərinin orta əsr incəsənət təsvirli saxsı qabları

Cənubi Qafqazda ibtidai mənşəyi Azıx insanları ilə başlayan incəsənət mezolit dövründə Qobustan sakinlərinin qayaüstü təsvirləri ilə davam etdirilmiş, ardıcıl inkişaf və ənənəvilik şəraitində orta əsrlərdə daha yüksək zirvəyə qalxa bilmişdir. Azərbaycanın təbii zənginlikləri, heyvanat aləmi ayrı-ayrı mərasimlərlə bağlı inamları, dünyagörüşlərini əks etdirən rəngarəng süjetlər bu təsvirlərdə əks olunmuşdur.

Erkən orta əsrlər dövründən başlayaraq, Azərbaycanda Sasani, Bizans, Ərəb, Xəzər işğalları, İslam dininin qəbulu ilə bağlı məişətdə baş verən dəyişikliklər incəsənət abidələrinə də təsirsiz ötüşməmişdir. Xüsusilə dulusçuluq sənətinin inkişaf mərhələlərini Gəncə şəhərinin orta əsr gil qabları üzərindəki bəzək və ornamentlərdə daha ardıcıl izləyərkən əsasən cızma, döymə üsulları ilə həkk olunan təsvirlərdə insanların həyat və fəaliyyətini daha yaxşı izləmək mümkün olur. Gəncə şəhərinin orta əsr dulus qabları üzərindəki təsvirlər əsasən insan, heyvan, quş rəsmlərindən, əkinçilik, ovçuluq, bağçılıq və maldarlıqla bağlı səhnələrdən, qabların üzərindəki işarə və damğalardan ibarətdir. Bu rəsmlər orta əsrlərdə Gəncə şəhəri və onun ətraf ərazilərində yaşamış insanların təsərrüfat həyatının, dini inamlarının, dünyagörüşünün, mədəniyyətinin və incəsənətinin inkişaf dinamikasının göstəriciləridir.

2007-2010-cu illərdə Gəncə şəhərində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış boz və qəhvəyi rəngli cilalı və instruksiyalı gil qablar zövqlə, gözəl bədii tərtibatda hazırlanmışdır. Gəncə şəhərinin orta əsr dulus məmulatı üzərində bölgənin təbii coğrafi şəraitini əks etdirən maral,gur,öküz,keçi,canavar,ağac,təkər və astronomik təsvirlər daha çoxdur (3.55-58). Bədii tərtibatlı bu sənət nümunələri orta əsrlərdə bölgə əhalisinin yaşayış tərzini, məişət həyatını və incəsənətini öyrənmək baxımından əhəmiyyətlidir.

Kiçik Qafqaz dağlarının ətəkləri rəngarəng bitki və heyvan növləri ilə zəngin olduğundan Gəncə şəhərində orta əsrlərdə istehsal olunmuş dulus qablar üzərində bu cür

təsvirlərin olması təbiidir. Orta əsrlərdə Gəncə şəhərində hazırlanmış ətir qablarının üzərindəki təsvir incəsənət nöqteyi-nəzərdən daha yüksək qiymətləndirilir. Qabın üzərində şahə qalxmış atın üzərində cəngavər, onun qarşısında isə qaçan dovşanlar təsvir edilmişdir (2-ci tab., 3-cü şək.). Fikirimizcə qabın üzərində təsvir edilən cəngavərşeirində onu mədh edildiyinə görə Nizami Gəncəviyə hədiyyələr bəxş etmiş Atabəy hökmdarı Məhəmməd Cahan Pəhləvan, dovşanlar isə onun düşmənləridir. Yəni qabı hazırlayan dulusçu-sənətkar-rəssam burada Məhəmməd Cahan Pəhləvanı igid, qoçaq, yenilməz, onun düşmənlərini isə dovşan kimi qorxaq təsvir etmişdir.

Orta əsr Gəncə şəhərindən arxeoloji qazıntılar zamanı tapılmış cam tipli qabın içərisində isə maralı qovan pələng və ətrafında keçi rəsmləri həkk edilmişdir. Orta əsrlərdə Gəncə şəhərində istehsal olunmuş dulus qablarının əksəriyyəti içəri tərəfdən yaşıl, göy, ağ və qarışıq rənglərdən alınmış boyalarla örtülmüşdür. Dulus qablar üzərindəki bu cür təsvirlər həm də orta əsrlərdə Gəncə şəhərində yaşayıb- yaratmış klassiklərin əsərlərində kifayət qədərdir. Bu baxımdan Nizami Gəncəvinin “İsgəndərnamə” əsərində “Fitnə” obrazının, Məhsəti Gəncəvinin dulus qablarının hazırlanma prosesi kimi təsvirlərinin maddi-mədəniyyət qalıqları üzərində əksi daha çox maraq doğurur.Bu cür təsvirlərin olduğu qablar təkcə Gəncə şəhərində deyil,həm də orta əsrlərdə iqtisadi və mədəni baxımdan ondan asılı olan Gəncəbasar ərazisində aparılan arxeoloji qazıntılar zamanı da xeyli sayda aşkarlanmış və tədqiq olunmuşdur.

İntibah dövrünün ən qüdrətli şairlərindən Nizami Gəncəvinin əsərlərindəki məlumatlardan görünür ki, dulus qablar üzərindəki təsvirlər gerçəkliyi tərənnüm etmiş, həyati faktlara əsaslanmışdır. Bu baxımdan Nizami Gəncəvinin “Yeddi gözəl” poemasındakı məlumatlar maraqlıdır.

On naxış vursa da bir nəqqaş əgər,
Əsas bir cizgidən sanma əl çəkər
Bir cizgi naxışdan çıxarsa kənar
Başqa cizgilər də bütün pozular (6.58).

Bu şeir parçasında şair müxtəlif ornamentlərlə bəzədilmiş dulus qabları üzərindəki bəzəklərin yüksək peşə hazırlığına malik dulusçu-rəssamlar tərəfindən işləndiyinə işarə edir, onlar arasında ixtisaslaşmanın olduğunu göstərir. Şair saxsı qablar üzərinə vurulan rənglərin meşə materiallarından hazırlandığını “İsgəndərnamə” poemasında belə təsvir edir:

Saxsı güldan reyhanla bəzənmiş,
Ancaq bu reyhanlar meşədən gəlmiş (5. 213).

Nizami Gəncəvi burada XII əsrdə əhalinin güldan tipli qablardan istifadə etməsindən, həmin qabların zəngin nəbati elementlərlə bəzədilməsindən xəbər verir. Dulus sənətkarlığının xüsusi sahəsi olan kərpic istehsalı ilə bağlı məlumatlar isə şairin əsərlərində bu cür qələmə alınır. O, daim torpaqla, su ilə, min bir əzab və zəhmətə qatlaşaraq kərpic kəsən ustanın işini qiymətləndirməklə tüfeyli həyat keçirdən gənci tənqid atəşinə tutur, onun dili ilə bu hadisəni belə qələmə alır. Şair burada həm də kərpic istehsalı üçün əsasən torpaqdan, samandan və suyun qarışığından istifadə olunduğunu qeyd edir.

Bu nə əzab, zəhmətdir, çəkirsən?
Saman və torpaq daşımaq uzunqulağın sənətidir.
Kəsəklərlə özünə nə qədər əziyyət verəcəksən,
Torpaq və su ilə nə qədər qurdalanacaqsan (4.106).

“İsgəndərnamə” poemasında şair şərabın qara torpaqdan hazırlanan saxsı qədəhlərdə içildiyini, onun üzərinin isə kəhrəba rəngi ilə bəzədildiyini qeyd edir:

Saqi ol, xəyallı şərab ilə dur,
Kəhrəba rəngli bu saxsını doldur.
Bu qara torpaqdan süzülən kövhər
Şənlətsin qəlbimi, qalmasın kədər (5. 364).

Saxsı kuzələrdən su qabı kimi istifadə olunduğu haqqında fikirlər də Nizaminin əsərlərində vardır:

Boş, quru kuzənin ağzını açdı,
Doldurmaq fikrilə vurdu daş hövzə,
Əlində qırıldı o saxsı kuzə (5.301).

Yeddi gözəl poemasında isə şair saxsı küplərdən su və digər məhsulların saxlanması üçün istifadə edildiyini təsvir edir:

Küp demə, küp demə quyudur, quyu,
Kərpic divarlara qalxmışdı suyu (6.105).

Orta əsr Gəncə şəhərindən arxeoloji qazıntılar zamanı aşkarlanmış dulus qablar üzərindəki təsvirlərin bir çoxu hələ tunc dövründən başlayaraq, Azərbaycanda yayılmış qayaüstü təsvirlərlə uyğunluq təşkil edir və onların davamı sayılır.Belə ki,keçi rəsmlərinə və şir təsvirlərinə e.ə. IV-III minilliklərdə ,maral rəsmlərinə və quş təsvirlərinə e.ə. III-II minilliklərdən rast gəlinsə də orta əsr dulus qabları üzərində də onların təkmilləşmiş formaları öz əksini tapmışdır. Orta əsr Gəncə şəhərinin dulus qabları üzərindəki təsvirlərdə rənglər həm də insanların dini ideoloji baxışlarını əks etdirir. 2009-cu ildə Orta əsr Gəncə şəhəri ərazisindən tapılmış, əsasən cızma üsulu ilə həkk olunmuş və qarşı-qarşıya sürü şəklində əks etdirilmiş keçi rəsmləri diqqəti cəlb edir (1-ci tab.,şək. 15). Onlar yan tərəfdən kiçik ölçüdə təsvir olunmuşlar.Gəncənin dulus qabları üzərində buynuzları elleps şəklində bədəninin arxa hissəsinə doğru uzanmış təsvirlərlə yanaşı dalğavari şəkildə təsvir olunaraq ucları qabaq istiqamətində çevrilmiş keçi rəsmləri də vardır.Bu da onu göstərir ki,orta əsrlərdə keçi Gəncə və ətraf ərazilərin sakinlərini ət, süd kimi zəruri ərzaq məhsulları ilə təmin edirmiş,onun dərisindən məişətdə, tükündən isə dulus qablar və təndir hazırlanmasında istifadə olunmuşdur. Qablardan birinin üzərindəki səhnədə keçilər sürü halında, digərində isə müxtəlif istiqamətlərdə dayanmış şəkildə təsvir olunmuşlar. Keçi rəsmlərinin əks olunduğu bəzi təsvirlərdə bitki-həyat ağacı simvolunu ifadə edir. Orta əsr Gəncə şəhəri ərazisindən tapılmış XIV-XV əsrlərə aid boşqab tipli qabın içərisində dəvə rəsmi vardır. O, uzun bədənli, uzun ayaqlı və qoşa hürgüclü formada təsvir edilmişdir. Dəvənin ayaqları düz nazik, boynu isə qalın xətlə təsvir edilmişdir. Gəncə ətrafı çöllüklər, xüsusilə Goran düzünün dəvəyovşanı adlı bitki ilə zəngin olması buranın dəvə saxlanılması üçün əlverişli şəraitinin olmasından xəbər verir. Digər tərəfdən Gəncə ətrafı qalalardan birinin Şütür qalası (Dəvə yeri) adlanması da fikrimizi əsaslandırır(2.105-106).

Saxsı qabların üzərindəki cüyür, ox atan kirpi (1-ci tablo, 1-ci şəkil), quşu qovan it (1-ci tablo, 2-ci şəkil), cüyür ovlayan qartal (1-ci tablo, 3-cü şəkil), tovuzquşu (1-ci tablo, 4-cü şəkil), pələngin üstündə oturmuş quş (1-ci tablo, 5-ci şəkil), üzərində ilan dolanmış quş təsvirli möhür (1-ci tablo, 6-cı şəkil), balıqlı göldən su içən heyvan (1-cı tablo, 7-ci şəkil), əks istiqamətlərdə hərəkətdə olan tülkü (1-ci tablo, 9-cu şəkil), ağac gövdəsində dayanan dovşan ( 1-ci tablo, 10-cü şəkil), dovşanı qovan canavar (1-ci tablo, 12-ci şəkil), maral (1-ci tablo, 13-cü şəkil), quş (1-ci tablo, 14-cü şəkil), təsvirləri yüksək bədii zövqün və sənətkar yaradıcılığının zirvəsi kimi qiymətləndirilir.

Dulus qablardan birinin üzərindəki təsvirdə qoyun və canavar üz-üzə dayanmışdır ki, bu da qədim inanclarımızdan biri olan"qurd ağzı bağlama" ovsunu ilə əlaqəlidir. Maldar əhali arasında itən heyvanların gecədən səhərə salamat çıxması üçün bu cür ovsunlardan istifadə olunurdu. Bir qayda olaraq hava qaralanadək bıçağın ağzına ip qoyub bağlayaraq belə düşünürdülər ki, qurd gecə həmin heyvana rast gəlsə də ona toxunmayacaq.

Dulus qablar üzərindəki it, at, qatır, uzunqulaq və s. kimi təsvirlər bədii yaradıcılıq baxımından seçilir və insanların gündəlik təsərrüfat və məişət həyatını əks etdirir. İt hələ ibtidai dövrdən başlayaraq insanların həyatı ilə sıx bağlı olduğundan Gəncədən tapılmış XII əsrə aid qabın üzərindəki təsvirdə canlı şəkildə verilmiş və real vəziyyəti əks etdirmişdir. İt həm də ən qədim zamanlardan insanın dostu olmuş,onun özünü və əmlakını mümkün

təhlükələrdən qorumuşdur. Lakin itə etibarlılıq tam deyildir. Xalq arasında “İtlə yoldaş ol,çomağını yerə qoyma“ və yaxud “İt quduranda yiyəsini tutar” məsəlinin yayılması da təsadüfi deyilməyib, illərin təcrübəsinə əsaslanır (1-ci tab., şək. 8,11).

Orta əsr Gəncə şəhəri ərazisindən arxeoloji qazıntılar zamanı aşkarlanmış dulus qablar üzərindəki incəsənət təsvirlərinin öyrənilməsi bölgədə bu sənət sahəsinin müəyyən mərhələlərlə inkişaf etdiyini göstərir. Belə ki,orta əsrlərin ilk mərhələsinə aid (III-IX əsrin birinci yarısı) qablar rəngsiz,şirsiz və saya formalı olsalar da onlar hazırlanarkən bəzilərinin ağız hissələrinin qoyun, inək, pələng və s. formalarda olması hətta müharibələrin tüğyan etdiyi,yaxşı sənətkarların ölkədən aparıldıqları vaxtlarda da insanların incəsənət baxımdan qabiliyyətlərinin göstəricisidir.

IX-X əsrlərdə isə Gəncədə dulusçuluq sənətində məişət qablarının növləri artır, yeni qablar meydana çıxır, naxışlar zənginləşir. Bu da ilk növbədə həmin məhsulların dulus çarxında hazırlanması, dulusçuluğun peşəkar sənət sahəsinə çevrilməsi və insanların incəsənət baxımından təcrübələrinin artması ilə əlaqəlidir.

Bu baxımdan arxeoloji qazıntılar zamanı aşkarlanış antropomorf təsvirli əşyanın hissələri (2-ci tab. 1 və 2-ci şək.), cüyür (2-ci tab. 4 –cüşək.), həyat ağacı simvolu kimi təsvir edilmiş qadın rəsmi (2-ci tab. 6-cı şək.), ucalıq, hakimiyyət rəmzi olan qarşı – qarşıya dayanmış qartal təsvirli qab (2-ci tab., 7-ci şək.) incəsənət sahəsində İntibahın göstəriciləri sayılır.

XI-XIII əsrlərdə Gəncədə dulus qabların hazırlanma texnikası daha da inkişaf edir, qabların keyfiyyəti yüksəlir,naxışlar daha da zənginləşir, yeni növ qablar meydana çıxır ki, onların da hər biri incəsənət baxımından böyük maraq doğurur. Dulusçuluq sənətində ixtisaslaşmanın meydana gəlməsini ağ və qırmızı gildən təyinata uyğun məhsulların hazırlandığından görmək olur.

IX-XIII əsrlərdə yaşıl, şabalıdı, sarı və göy rənglərin çalarlarından məharətlə naxış istifadə edən ustalar yüksək bədii lövhələr yaratmışlar ki,onların gözəlliyi indi də diqqətdən yayınmır. Onların üzəri həndəsi,nəbati və epiqrafik naxışlı rənglərlə canlandırılmışdır. Bu baxımdan üzəri kəsmə naxışlarla bəzədilmiş ətir qabları,üzəri yaşıl şirlə örtülmüş duz qabları maraq doğurur. Eyni tip qablar Beyləqanda aparılan qazıntılar zamanı aşkarlanmışdır (1.52-65).

XI-XIII əsr qablarının bir qismi qrafik və yaxud qazıma texnikası ilə (anqobüstü) naxış çəkilmiş əşyalardan, digərləri ancaq yaşıl şirlə örtülmüş qablardan ibarətdir. Onların naxış dekoru da müxtəlifdir. Məsələn, toxunmuş və hörülmüş lentlərdən alınan naxışlar, mərkəzdən yayılan şüavari naxışlar,şahmat taxtası formalı dama-dama naxışlar, nəbati naxışlar, heyvan təsvirləri və s. Məsələn, boşqabtipli qablardan birinin içərisində qatır rəsmi təsvir edilmişdir (2-ci tab. 5-ci şək.). Qab çökək olduğundan və şir tünd rəngdə verildiyindən usta təsviri istədiyi kimi canlandıra bilmişdir. Görünür bu cür qablar adətən yalnız ziyafət zamanı işlədildiyindən təsvir korlanmamış və olduğu kimi qalmışdır.

Bu dövrün dulus qablarında bədii naxışvurma (xətəmkarlıq və təkəlduz) üsulu da yayılmışdır ki,bu da milli tikmələr və bədii metallar üzərindəki təsvirlərlə oxşarlıq təşkil edir.

Gəncənin orta əsr təbəqəsindən tapılmış dulus qablar üzərindəki incəsənət təsvirlərinin öyrənilməsi XI-XIII əsrlərdə bölgədə dulusçuluq sənətinin ən parlaq dövrünü keçirdiyini göstərir ki, bu da həmin dövrdə ərazinin Azərbaycanda İntibah mədəniyyətinin mərkəzi olması ilə əlaqələndirilməlidir. Bu dövrdə Gəncədə şirli qab istehsalında bədii sənətkarlıq yüksək inkişaf mərhələsinə çatır. Xalq sənətinin incisi hesab edilən bədii keramika istehsalı artır. XI-XIII əsrlərdə Gəncədə kasa tipli qabların oturacağı daha da hündürləşir, ağzının qıraqları açıq şəkil alır,bəzi iri kasalarda ayaqlar meydana çıxır. Bu cür qablarda keyfiyyət, forma mükəmməlliyi, bədii quruluşca gözəllik özünü daha qabarıq göstərir, naxışçəkmə texnikasında dəyişikliklər baş verir. Əgər X əsrdə qrafik naxışlı qablar çoxluq təşkil edirdisə, XI-XIII əsrlərdə şabalıdı və yaşıl rəngli şirlə boyanmış qabların istehsalı artır. Eyni qabın

üzərində iki texniki üsulla (qrafik və şirkəçmə) əsasən quş, üçyarpaq gül, ağac budağı formalı təsvirlər çəkilmişdir. Naxışların eyni formalı olması onların bütün nüsxələrinin eyni bir emalatxanada, yaxud eyni ustanın rəhbərliyi ilə hazırlandığını göstərir. Rəsmlər çəkilərkən xətti naxışları nəzərə çarpdırmaq üçün qabların bəzənməsində marqanes, yaşıl, sarı, firuzəyi rənglərin çalarlarından istifadə olunmuşdur. Rənglərə fon vermək üçün ağ,qismən boz və yaşıl çalarlardan istifadə edilmişdir. Bu cür təsvirli qablar X-XII əsr materialları arasında keçid xarakteri daşıyır.

Gəncə şəhərindən tapılmış XI əsrə aid qablarda texniki baxımdan yeni - qazıma üsulundan istifadə edilmişdir. Qab anqoblaörtüldükdən sonra onun üzərində çəkilən rəsmin və ya naxışın fonu qazılmış,üstündən şəffaf şir çəkilərək müxtəlif rəngli və fərqli relyefli naxışlar alınmışdır.

Bu qabların bəzilərinin naxışları fonlarına nisbətən böyükdür ki,bu da XI əsrin əvvəllərinin məhsulu hesab edilə bilər. Onları "memarlıq naxışlı" qablar da adlandırırlar. Qablardan bəzilərində yaşıl şirlə çəkilmiş lentlər simmetrik şəkildə dairələndiyindən nəticədə dairələrarası yarpaqlar və güllər yaranmışdır.

Qırmızı rəngli bişirilmiş qabda yaşıl lentlərlə haşiyələnmiş və parlaq qurğuşun şiri altından anqobun ağ rəngini əks etdirən naxışlar Azərbaycanın zəngin dekorativ tikmələrinin və metal qablarının naxışlarına bənzəyir.

Orta əsrlərdə gəncəli ustalar qələm və fırçadan sərbəst istifadə edə bilmiş, müxtəlif həndəsi,nəbati və təsviri naxışlar çəkə bilmişlər. Bu da onlara rəsmlərin formasını və rənglərini lazımı dəqiqliklə vermək imkanı yaratmışdır. Heyvan,quş təsvirləri ilə yanaşı ov və oyun səhnələri də dəqiqliklə işlənmişdir. Gəncəli ustaların hazırladıqları memarlıqda medalyon kimi istifadə edilən şəbəkə təsvirli qab (3-cü tab. 1-ci şək.), nəbati təsvirli qabların hissələri (3-cü tab.2 və 3-cü şək.), bolluq, bərəkət rəmzi ifadə edən üzərində sünbül təsvirli qab, ( 3-cü tab. 4-cü şək.), saxsı qab hazırlayan ustaya məxsus damğa ( 3-cü tab. 5-ci şək.), qoşa cızma xəttlər və nüqtələrlə bəzədilmiş, içərisində süfrə duası yazılmış boşqab tipli qabın hissəsi ( 3-cü tab. 6-cı şək.), gil ləçəkli və buta ilə bəzədilmiş, üzəri cızma xəttlər və nöqtələrlə doldurulmuş cam tipli qabın hissəsi ( 3-cü tab. 7-ci şək.), üzəri həndəsi fiqurlarla bəzədilmiş naməlum təyinatlı qabın hissəsi (3-cü tab. 8-ci şək.), zəncirvari hörmə naxışlar, dairəvi qalın qoşa xəttlə bəzədilmiş boşqabın köbə hissəsi (3-cü tab. 9-cu şək.), astral təsvirli nəbati naxışlarla bəzədilmiş qabın hissəsi ( 3-cü tab. 10-cu şək.), günəbaxan təsvir edilmiş qabın hissəsi orta əsrlərdə incəsənət sahəsində əldə edilmiş nailiyyətlərin zirvəsi sayıla bilər.

Bu dövr qablarından bəzilərində naxış üstündən naxışın çəkilməsi də ustadan böyük məharət tələb edirdi. Bu üsulda usta naxışın astarından ona əlavə naxış toxuyurdu. Bu cür naxışvurma bəzək əşyalarında da izlənilirdi (8.96).

Son orta əsrlər dövründə isə şüşə istehsalının artması,insanların məişətində daha zərif qablardan istifadəyə geniş yer verilməsi ilə dulus qablardan əsasən təsərrüfat məqsədli işlərdə istifadə olunur ki, bu da çox böyük zövq tələb etmirdi. Qablar üzərində incəsənət təsvirlərinin tətbiqi XVIII-XX əsrlərdə mis qabların hazırlanması zamanı da tətbiq edilmişdir (7.4-5). Orta əsr Gəncə şəhərində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış dulus qablar üzərindəki təsvirlərin öyrənilməsi bizə yuxarıda qeyd etdiyimiz fikri əsaslandırmağa imkan verir.

Bəzi dulus qablarının üzərindəki təsvirlər həndəsi formalı motivlərlə ifadə olunmuşdur. Hələ Tunc dövründən rast gəlinən bu cür bəzək nümunələri antik və orta əsrlər dövründə də davam etmişdir. Bu cür elementlər memarlıqda, metalişləmə, toxuculuq kimi sənət sahələrində, həmçinin xalçaçılığın bədii tərtibatında Gəncə -Qazax bölgəsində bugün də davam etdirilir. Orta əsr Gəncə şəhər yerindən aşkar olunmuş dulus məmulatları üzərindəki bəzək növləri,rəsmlər Qarabağ bölgəsinin orta əsr materialları ilə eyniyyət təşkil edir ki, bu da təbiətin və təsərrüfat həyatının eyniliyi ilə əlaqəlidir. Belə təsvirlərin tunc və antik dövr materiallarında da aşkarlanması maddi mədəniyyətdə ənənəviliyin, varisliliyin, ardıcıllığın göstəricisi olmaqla bu ərazilərin xalqımıza məxsus daimi yaşayış yerləri olduğunu təsdiq edir.

***Ədəbiyyat***

1. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri, Bakı 1979, 197 səh.
2. Məmmədov A.M. Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (Ən qədim zamanlardan – XIX əsrə qədər) Gəncə, 2008. 297 səh.
3. Məmmədov A.M. Qədim Gəncə,Bakı 2014, 104 səh.
4. Nizami Gəncəvi. Sirlər xəzinəsi, Bakı, Yazıçı, 1981
5. Nizami Gəncəvi. İsgəndərnamə, Bakı, 1982
6. Nizami Gəncəvi. Yeddi gözəl, Bakı, 1980
7. Quliyeva İ.M. Azərbaycanın mis məmulatları. Bakı, 2005, 23 səh (buklet)
8. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV- XII), Bakı, Elm, 2000, 298 səh.

## КЕРАМИЧЕСКИЕ ИЗДЕЛИЯ ИЗ ГЯНДЖИ КАК ОБРАЦЫ СРЕДНЕВЕКОВОГО ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВО

***Маммадзаде Араста Елчин кызы***

***Резюме***

Искусство, зародившеесяна Южном Кавказев период палиолита, продолжилось как традициинаскальными рисунками в период мезолита в Гобустане и достигло своего пика в средниевека. Природные ресурсы Азербайджана фауна на средневековой керамики из Гянджи представлены в основном, изоброжениями людей, сцен, связанных с сельским хозяйством, охотой, садоводстом и скотоводством, животных, птиц знаками на керамических сосудах. Эти рисунки отражают экономическую жизнь и религиозные верования древних посоленцев Гянджи и ее окрестностей в средние века, являются индикаторами динамики развития мировоззрения, культуры и искусства.

Изображения оленя и козла выгравированы внутри средневекового стеклянного сосуда, найденного во время археологических раскопок в Гяндже. Средневековая керамика из Гянджи покрыта изнутри ангобом зеленного, синего, белого и других цветов. Описание таких изображений встречаются произведениях классиков, живших и творивших в средние века городе Гянджа. В этой связи интересен образ «Фитна» в «Искендернаме» Низами Гянджеви и процесс изготовления керамики Махсати Гянджеви. Средневековыйе сосуды с такими изображениями обнаружены и изучены не только в городе Гянджа, но и при археологических раскопках и Гянджабасара.

Многие изображения на керамике выявленные во время археологических раскопок в средневековом городе Гянджа, являются продолжением наскальных рисунков эпохи. Улучшенные формыизоброжения птиц 3-го и 2-го тысячелетий до нашей эры также нашли отражение в средневековой керамике. Цвета керамики средневекового города Гянджа также отражают религиозные и идеологические взгляды людей. Изоброжения собаки, лошади, мула, лося и др животных на керамике отрожают хозяйственную жизнь, и быт людей в тот период. Изучение искусства керамики в средневековой Гянджи, показывает, что эта область искусства регионе развивалась в определенные периоды истории и является показатель художественных способностей людей даже во время войны. В IX-X веках в Гяндже виды домашней гончарной утвари значительно обоготилась появились новые виды посуды обогатились и узоры.

Это связано с изготовлением изделий на гончарном круге и превращением гончарного дела в профессиональное искусство. В XI-XIII веках техника изготовления гончарных изделий в Гяндже получила дальнейшее развитие, улучшилось качество гончарных изделий, обогатились узоры, появились новые виды гончарных изделий, каждый из которых представлял большой интерес с художественной точки зрения. Изучение средневекового керамического искусства Гянджи, показывает, что в регионе наблюдался расцвет гончарного искусства в XI-XIII веках вероятно, это связано с тем, что в тот период в Азербайджане этот регион превратился центром культуры

Возрождения. Изображения на некоторых керамических изделиях выражены геометрическими мотивами. Подобные декоративные узоры бронзового века продолжались в древности и в средние века. Такие элементы в Гянджа-Казахскоми сегодня используются в архитектуре, ткачестве, в ковроткачестве. Схожесть орнаментов на средневековой керамике Гянджи со средневековым материалам Карабахского региона, что обьясняются схожестью географической среды и хозяйственной жизни. Обнаружение таких изображений в археологически выявленных изделиях периода бронзы и античности являются покозателем преемственности традиций и подтверждает, что эти територии были поселениями с самого древнего периода.

## POTTERY CONTAINER OF MEDIEVAL ART IN GANJA

***Mammadzada Arasta Elchin***

***Summary***

Art, which began in the South Caucasus with the Azykh people, continued in the Mesolithic period with rock carvings of the inhabitants of Gobustan, in the middle centuries, it was able to reach a higher peak in the conditions of consistent development and tradition. Natural resources of Azerbaijan, wildlife, beliefs about individual ceremonies, colorful plots that reflect their worldviews reflected in these descriptions.

The images on the medieval pottery of Ganja city consist mainly of human, animal and bird paintings, scenes related to agriculture, hunting, gardening and cattle breeding, signs and stamps on the dishes. These paintings are indicators of the development dynamics of farm life, religious beliefs, worldview, culture and art of the people living in Ganja and surrounding areas in the middle ages. In a glass vessel found during archeological excavations in the medieval city of Ganja tiger chasing a deer and around it are carved pictures of goats. Most of the manufactured pottery in the medieval city of Ganja in the middle ages covered with green, blue, white and mixed colors. Such images on pottery are enough in the works of classics also living in Ganja city in the middle ages. In this regard the character of “Fitna” in Nizami Ganjavi`s “Isgandarnama”, Mahsati Ganjavi's descriptions as a process of making pottery reflection on the remains of material culture are more interesting.

Many of the images on pottery found during archeological excavations in the medieval city of Ganja date back to the Bronze Age and are consistent with rock carvings widespread in Azerbaijan and is considered a continuation of them. So that paintings of goats and lions have been found in the 4th and 3rd millennia BC, deer drawings and bird paintings in the $3^{rd}$ and 2st millennia, medieval pottery also reflected their improved forms. In the medieval city of Ganja in the depictions on pottery, colors also reflect people's ideological views. Dog, horse, mule, elk, etc. such drawings on pottery are distinguished in terms of artistic creativity and reflects domestic life.

Study of art paintings on pottery found during archeological excavations in the medieval city of Ganja shows that this field of art is developing in certain stages in the region. Thus, although the vessels of the first period of the Middle Ages (first half of the III-IX centuries) are colorless the mouths of some of them contain to be in forms sheep, cows, deer, etc. even in times of war, when good artists are taken out of the country, it is an indicator of people's artistic abilities.

In the IX-X centuries, the types of household utensils in the art of pottery increased, new pots appeared and patterns were enriched in Ganja. This is primarily due to the fact that these products are made on a potter's wheel and pottery has become a professional art.

In the XI-XIII centuries, the technique of making pottery was further developed, the quality of pottery increased, patterns became even richer, and new types of pottery appeared in Ganja each of which is of great interest in terms of art. The emergence of specialization in

the art of pottery can be seen in the fact that products are made using by white and red clay for their intended purpose.

Study of art paintings on pottery found in the medieval layer of Ganja shows that in the XI-XIII centuries the region had the brightest period of pottery and also this is due to the fact that the region was the center of Renaissance culture in Azerbaijan at that time.

The images on some pottery are represented by geometric motifs. Such ornaments which even found until the Bronze Age also continued in antiquity and the Middle Ages. Such elements continue today in the Ganja-Kazakh region in the fields of architecture, metallization, weaving, as well as in the artistic design of carpet weaving. Types of ornaments on pottery, drawings which were found in medieval Ganja are identical with the medieval materials of the Karabakh region which is due to the similarity of nature and economic life. The discovery of such images in the materials of the Bronze and Antiquity is an indicator of tradition, succession, and continuity in material culture confirms that these areas are permanent settlements belonging to our people.






*Rəyçi: dos. Cavid Bağırzadə*

***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsinin 19 aprel 2021-ci il tarixli iclasın 04 saylı protokolu***

***Daxil olduğu tarix 26 aprel 2021-ci il***